# HƏR KƏS ÖZ KARVANINDA

## *yaxud "İki yarpaq" hekayəsi*

Ədəbi publisistikasında olduğu kimi, Şəfəq Nasir nəsrində də həyatı reallığa söykənir. Dövrün təbiətini göstərən hadisələrə ayıq baxışla münasibət bildirməkdən çəkinmir. Hər bir hekayəsində psixoloji yaxud sosial problemi çözür, həlli yollarını axtarır... Əvvəllər də Şəfəq Nasirin atılmışlar probleminə biganə olmadığını demişdik. Ancaq, yazıçının iki yarpaq adlandırdığı hekayəsində məsələnin fərqli qoyuluşu var. Burada müəllif sanki atılmışlardan yox, atılmışlığa aparan yoldan bəhs edir. Özü də bu yolun tale ilə bağlı tərəflərinə daha çox işıq salır.

"İki yarpaq" hekayəsi bir insan ömrünün - bir insan taleyinin əzəl və axır məqamlarına diqqəti çəkir. Oxucunu xüsusi həssaslığa hazırlayır. Gənc qız Ceyranın ilk gənclik çağları, bir də əsri daha on il ötəndən sonrakı günləri müəllifin işıqlandırılmış düşüncə müstəvisində ən xarekterik cizgiləri ilə görünür. Xalq arasında belə bir misal var: əzəlin gəlsin, axırın?..

Şübhəsiz, insan taleyinin təsadüflərdən də asılı olduğunu danmaq olmaz. Amma bu təsadüflər əgər bir-birilə bağlanırsa, müəyyən zəncirvari əlaqə yaradırsa, demək, əslində insan öz taleyinin müəllifi olur və həmin təsadüflər də müəyyən əməlin nəticəsidir. Ceyran gəncdir, həyatının ən gözəl çağlarına elə indi-indi addım atmaq istəyir.

Bu addımın mahiyyəti necə olacaq, bu addım Ceyrana uğur gətirəcək, gətirməyəcək, hadisələr hansı məcrada inkişaf edəcək, bunu hələ nə Ceyran özü bilir, nə də oxucu bilir. Ancaq hadisələrin ötən əsrin lap əvvəllərində hərəkətə başladığını hekayədə təsvir olunan ailənin həyat tərzindən, sahibkarın statusundan müəyyən etmək olar. Amma iş burasındadır ki, situasiyanın, vəziyyətin sahibi olan kişi bütün imkanlarına, gücünə baxmayaraq, taleyin gərdişini öz xeyirinə döndərə bilmir. Bunlar hələ bir qədər sonra daha aydın çözüləcək. Ancaq həyat qapısını həyət qapısı ilə rəmzi olaraq birləşdirən müəllifin Ceyran kimi bir qızı yırtıcı həyatın düz kandarına qədər gətirib: «Doqqazdan içəri ürkək-ürkək ayaq qoyan Ceyran indi də aşağıda duruxub qalmışdı. Bilmirdi, yuxarı qalxsın, ya dübarə çağırılmağını gözləsin. "neynəyim"nən qurcuxa-qurcuxa, bir də baxıb gördü artırmanın başındadı. İçəri boylandı. Geniş, işıqlı eyvanın divar döşəməsindən butalı-xonçalı xalçalara, alışdım-yandım qızılı pərdələrə, qıp-qırmızı açmış dipçək güllərinə heyran-heyran göz süzdürdü. Cahi-cəlaldan məsti-xumar baxışları birdən ayağındakı köhnə, dabanları yamaqlı corablarına ilişəndə bikefləmiş geri çəkildi. İçəri keçməyə ürəklənmədi». Şəfəqin kolorit yaratmaq gücü, şübhəsiz, onun istedadı ilə bağlıdır. Ancaq bu istedad mühiti yaxşı öyrənmirsə, dili kifayət qədər alt qatlarına qədər bilmirsə, öz təsirini göstərə bilməyəcək. Ancaq Ş.Nasirdə bu imkanlar kifayət qədər əsaslıdır. O, keçmiş, ən azı yüz il bundan əvvəlki zamanı göstərmək üçün dövrün təbiətinə uyğun ifadələr, sözlər xarakterik cizgilər seçir, yerinə görə işlədir. Məsələn, «yan otaq» əvəzinə «kallayı otaq», «sandıq» əvəzinə «yaxdan» sözləri ilə düşüncəmizin zamanın o tayına keçməsinə şərait yaradır. Biz artıq talelərin insan həyatının müəyyən maddi imkanlardan asılı olduğu bir dövrə düşürük. Doğrudur, elə bu günün özündə də insan taleyi maddi təminatlardan çox asılıdır. Hər halda, əsərin ruhundan da görünür ki, həmin zamanda qanunu şəxsin gücü maddi imkanları əvəzləyir. İlk səhifələrdəncə gənc qızın yaşlı və təcrübəli ev sahibəsi ilə rəqabət mühiti görünür: Səlim bəyin arvadı ilə evin qulluqçusu olacaq Ceyranın arasındakı münasibətin bünövrəsində nə dayanır.

Hələlik bir qədər bu məsələni də öz növbəsinə buraxaq. Ceyran yeni evdə yeni həyata libasını dəyişməklə başlayır: «Kəllayi otaqda boğçaları ələk-vələk eləyən Mərcan xanım qızın hələ də qapı arasında duruxub qaldığını bildiyindən ordanca hayladı:

-Niyə dayanmısan, qız, yaxtanın üstündəki döşəkçələrdən birini çək, otur, indi gəlirəm.

Ceyran diksindi. Xalıların gül rənginən ayrılmayan yanaqları alışmışdı. Yaraşıqlı gözlərini qatlama kiprikləri çöhrəsinə çətir açdı. Yaxtanın böründə qısılmış durdu.

Tafta donunun ətəyi yerlə sürünən Mərcan xanım qolunun üstünə atdığı paltarlarla eyvana keçdi.

-Kiçik xanımın evdə qalan tuman koftalarıdır. Bax, gör, əyninə gələni varmı? Hə, niyə dayanmısan, tərpən görək!

Ceyran yerində qurcuxdu, amma yenə irəli yerimədi. Mərcan xanım qızın bərk sıxıldığını görüb, özü tuman koftaları bir-bir onun üstünə tutdu.

-Bir bu çəhrayını əyninə keçirt görüm. Deyəsən, olacaq.

Ceyran gözucu qolunun üstündəkinə nəzər saldı, təzədən yan-yörəsinə boylandı. Mərcan xanım əlini yellədi:

-Utanıb eləmə, qız, səndən-məndən savayı adam yoxdu burda. Soyun bu cırcındırları görək!». Müəllif Ceyranın libasının dəyişməsinə, yeni evdə qulluqçu kimi işə başlamasına bir qədər təfərrüatlı yanaşır. Çünki Ceyranın bütün həyatı, gələcəyi elə bu təfərrüatın içərisində verilib. Evin xanımı olan Mərcanın düşüncəsinə görə, əgər Ceyran libasını dəyişibsə, hətta ərinin bacısı Kiçikxanımın evdə qalan libaslardan birini geyibsə, demək, o, bu evin ab-havasına uyğunlaşmalıdır. Bir az da dəqiqləşdirsək, bu evin mal-qarasının biri olmalıdır, heyvanatı sırasında olmalıdır. Yəni qulluqçusu yox, qulu olmalıdır, köləsi olmalıdır. Bu qızın atası da bu evdə mehtərlik eləyib. Bu evdə dolanışıq tapıb. İndi qızını da gətirib bu evdə qulluqçuluğa...

Qadının danışığından belə görünür ki, o, evinin nökəri olan atanın qızını qulluqçuluğa ona görə götürüb ki, bu qulluqçuluq, əslində, sahibənin hökmünün əlavəsidir. Qız paltarını dəyişəndən sonra təzə libasın içərisində açılmaqda olan qönçə kimi görünəndə sahibə qadının dalağı sancır, qızın gözəlliyi qarşısında sarsılır. Elə buna görə də qızı özünə əmanətləməyə çalışır. Bu əmanətləmədə hədə-qorxu da var, təpki də var.

Mətnin bir qədər geniş hissəsini burada təqdim etməklə oxucuda ötən əsrin əvvəllərinə aid olan mühitlə bağlı dolğun təəssürat yaratmaq istərdik: «Ceyran yaxdanın arxasına keçib aşağı çöməldi. Mərcan xanım əlləri belində pəncərədən həyətə boylanıb, nökər naibə göz qoyurdu. Ceyran ürkək-ürkək xanıma tərəf döndü. Xanım onun geyindiyini bilincə, arxaya çevrildi. Mehtər Əlişin qızını tanımırmış kimi başını yüngülcə silkələyib, gözlərini qırpdı. Sinəsindən sallanan hörüklərə, belinə yapışmış koftasına baxdı.

-Qız, yaxın gəl görüm, bu sənsənmi? Nə gözəlsən, nə can alansan. Dizini qatla, otur yanımızda... Belə bax, bu eyvana, kəllayi otaqlara sən baxacaqsan, yıryığışı, səliqə-sahmanı sənin öhdəndədir. O, əliəyri köpəyoğlunun qızı kimi çıxsan, sənin də aqibətin olacaq onun kimi. Mən deyən olsa, sənə kiçik bacım təki baxacam.

Deyə-deyə də qıza göz qoyurdu. Ceyranın canına istilik gəldi, yanaqları pörtdü, dodaqları zərifcə qaysağlandı, hamar, tər-təmiz allı puçurlandı. Dağ çiçəyinə bənzəyən qızın saflığı, həyası xanıma xoş gəlmişdi.

-Di yaxşı, qaldır başını, Allah eləməsin sən onun kimi zatı napak çıxasan.

-Dədən neçə ildi bu qapıda namusla tər tökür. Onun balasına özü kimi saf olasıdı... nə deyəcəkdim, hə, qapı-bacada hərlənəndə gədələrə üz vermə. Nökər-naibi deyirəm. Gözə gəlimlisən, sonra söz-sov olar, bəyin acığı tutar, hərçənd inanmıram, bəyin qorxusundan gədə-güdə latayır işlər tuta. Yenə səni ayıq salıram. Kişi tayfası ki, var, qırsaqqızdı, yapışdımı qopmaq bilməz. Qopanda da zənənə saldığı ləkəsi çətin təmizlənər.

Ceyran təzədən büzüşdü, çiyinləri qısıldı: "Birdən xanım... Yox, yox, Allah eləməsin".

-Allah eləməsin, elə qıza oxşamırsan... di yaxşı, düş aşağı, günorta naharına əl-ayaq ver, bəyin qonaqları olacaq.

Ceyran cəld ayağa qalxdı». Bəs deyil, hələ yenə də mətndən əlavə parçalar vermək olar. Və bu parçalar əsasında müəllifin 100 il əvvəlki zamana səyahətinin dəqiq mənzərəsini oxucu üçün nümayiş etdirmək olar. "Nümayiş" sözü də burada kara gəlir. Çünki Ş.Nasirin "İki yarpaq" hekayəsi sanki bir sinemadır, hazır çəkilmiş filmdir. Və filmin dəyişən kadrları fonunda biz ayrı-ayrı insan mənzərələrini görür, dövrümüzlə, zamanımızla ötən çağların müqayisəsini aparırıq. Bəlkə də, bəzi məqamlarda həmin dövrdə yaşamağın üstünlüyünü görür, bəzi məqamda o dövrdən çıxıb öz zamanımıza gəlməyin daha üstün olduğunu qavrayırıq. Səlim sahibkar ovçudur. Amma bizə elə gəlir ki, müəllif ona ovçuluq missiyasını təsadüfi verməyib. Bu missiya ilə o, həyatda yaxşı nə varsa, özünə səkməyin, özünə götürməyin, hətta bütün yaxşılıqları bir ov hesab edib özü üçün ovlamağın ustasıdır. Amma sahibkar Səlim - əsərdə Səlim bəy - onu unudur ki, həyat nemətlərini bacarıqla, fərasətlə özünə əxz etmək olar. Ov adla biləcək bütün qazancları özünə mənimsəmək olar. təkcə taleyi, bəxti ovlamaq mümkün deyil. Özünə qəsb etmək, özünə götürmək mümkün deyil. Bu, İlahi qismətdir. Demək, var-dövlət, sərvət taleyi, bəxti özünə yönəltmək üçün nisbi rol oynaya bilər. Beləliklə, Səlim bəy özünün bəxt axtarışındadır. O, Ceyranı gördüyü ilk gündən sanki təzə ov görmüş ovçu kimi gözləri ilə onu bərələməyə çalışır. Gözlərilə izləyir, bəzən hayıl-mayıl olur, bəzən nehrə döşlü arvadı Mərcanla bu yeniyetmə qızın möcüzəvi gözəlliyini müqayisəyə çəkir. Bütün hallarda müqayisələr zamanı onun arvadı Mərcan xanım bu müqayisələrin hamısında uduzur.

Baxmayaraq ki, müəllif Mərcanı insani baxımdan hər vaxt müəyyən səviyyədə qoruyub-saxlayır, onun insanpərvərliyi, duyğusallığı, ərinin qayğısına qalmağı... bütün bunların hamısı Mərcanın elə keyfiyyətləridir ki, onun təbiət etibarilə o qədər də ağır cəzaya məhkum olunmasına əsas vermir. Amma nə edəsən ki, onun həyat yoldaşı, illər boyu çiyin-çiyinə birgə gəldiyi Səlim bəy təbiət etibarilə yırtıcı missiyasından da əl çəkmir. Axı o, "ovçu"dur. Ovçu isə qan tökmək, yaralamaq, ovlamaq missiyasının sahibidir.

Biz Səlim bəyin qıza olan həris baxışlarını, yırtıcı nəzərlərini oxucu olaraq ona bağışlamırıq. Ancaq müəllif Səlim bəyin Ceyrana münasibətini əsaslandırmağa çalışır. Çünki Səlim bəyin Mərcan xanımdan övladı olmayıb. O, istəyir ki, züryəti olsun, övladı olsun. Bu dünyada onun adını yaşadan olsun.

Bu istəyin özü əslində, insani baxımdan o qədər də qəbahət deyil. Qəbahət olan odur ki, Səlim bəy gücünə güvənib, imkanlarına güvənib Ceyrana sahiblənmək istəyir. Bu sahiblənmənin nəticəsi necə olacaq? Hansı ürəklər dağlanacaq? Hansı həsrət yarı yolda çiliklənəcək? Hansı vüsal hicran odunda yanacaq? Bax, bunu Səlim bəy bir insan olaraq düşünmək iqtidarında deyil. Yaxşı bilir ki, Ceyranın atası onun nehtəridir, başqa sözlə, nökəridir, qapısında dolanandır.

Səlim bəyin böyüklüyü onda olardı ki, o, qoltuğuna sığınana atalıq edəydi, böyüklük edəydi. Onun arzu və istəklərinin - başqa sözlə, sevgisinin qarşısına çəpər çəkməyəydi. Bir maraqlanaydı. Bu qızın əsl sevgisinin ünvanını öyrənəydi. Səlim bəy kimi adam üçün bunu bilmək qətiyyən çətin deyildi. Çünki bu qızın sevdiyi Ələsgərin özü də onun qapısında qulluqçuluq edəndir, nökərçilik edəndir.

Amma Səlim bəy onun qapısında nökərçilik edən, qulluqçuluq edən Ələsgərin şəxsiyyətini unudur. Unudur ki, Ələsgərin içindəki ruh öz sevgisinin gücü ilə ayağa qalxa bilər, ağasına qarşı dura bilər, ağasının bütün imkanlarını gözündə heçə döndərər. Hətta elə bir hünər, dəyanət göstərər ki, cəsarətinin tüğyana gəldiyi məqamda qarşısına çıxan bir Səlim bəyi yox, bütün Səlim bəyləri ayaqlayıb keçə bilər. Səlim bəyin nəzərə ala bilmədiyi güc bundan ibarətdir.

Ceyran demək olar ki, kimsəsizdir, baxmayaraq ki, atası da var, anası da var. Onlar da qızlarının istəklərini duymaq, anlamaq iqtidarında deyillər. Hətta onlar sevinirlər ki, qızlarının atası yaşında olan bəy bu qıza elçi düşür. Onunla evlənmək fikrində olduğunu bildirir. Hətta istəyir ki, bu qızdan - yəni nökərnaib qızından onun övladları dünyaya gəlsin. Ceyranın atası mehtər Əliş, mehtər Əlişin arvadı, yəni Ceyranın anası Səlim bəyin gətirdiyi hədiyyələrlə xoşbəxtliyin öz qapılarını döydüyünü düşünürlər. Guya ki, bu hədiyyələr onları bəxtəvərlik mərtəbəsinə çatdıracaq. Burada qız atası kimi Əlişin yesirliyi, bir az da tamah mövqeyində dayanmağı, bir az da bəylə qohum olmaq sarıdan şöhrət düşkünlüyü... müəllifin tənqidi hədəfində dayanır. Müəllif bir insan kimi onu dəyərləndirə bilmir, bəlkə də, dəyərləndirmək istəmir.

Beləliklə, hadisələr sürətlə dəyişir. Baxmayaraq ki, bəyin arvadı Mərcan xanım bu izdivacın əleyhinədir. Ancaq ərinin qarşısında dura bilmir. Onun da öz məntiqi var. O istəyir ki, bəlkə də istəmir, sadəcə razılaşır ki, əri evlənsin. Onun ikinci arvaddan uşaqları dünyaya gəlsin. O uşaqları Mərcan xanım ana kimi, nənə kimi öz qucağında, küräyində böyütsün.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 13-cü səhifədə)*

# HƏR KƏS ÖZ KARVANINDA

## *yaxud "İki yarpaq" hekayəsi*

Amma o istəyər ki, Səlim bəy onun məsləhət bildiyi bir qızla evlənsin. Özü də həmin qız üçün o, özü elçi gedər, özü qabağa düşər. Halal-hümmət bir ailə üçün özü xeyir-dua verərdi. Doğrudur, Ceyran onun gözünün qabağında idi. İlk gələn günündən, Ceyranı görən anından dalağı sancmışdı. Ərinin gözünün qabağına belə bir qızı gətirib çıxarmağı da özünün səhvi hesab etmişdi. Bütün bunların hamısından keçərdi. Amma el içində bir məsələni özünə bağışlaya bilmirdi, bir nökəri, bir naibi onun üstünə arvad edərdi.

Əlbəttə, Səlim bəy də arvadının sözü ilə oturub-duran kişilərdən deyildi. Ona görə də özü təşəbbüsü, hərəkəti özü idarə edir. Elçiliyi də, razılığı da - hamısı uğurla keçir. Mərcan xanım isə qəzəbindən özünə yer tapa bilmir, bəzən iki əllərini də düyünləyib hirsindən silkələnir, nehrə döşləri bir-birinə dəyib sanki zəlzələ görüntüsü yaradır. Bütün bunlar isə Səlim bəyin istəyinin qabağında heç nədir.

Səlim bəy öz istəyində olsun, Əliş də Səlim bəy kimi bir kürəkən arzulamağında olsun - baxmayaraq ki, özü yaşındadı - bunlar hamısı bir tərəfə, Onların nəzərə almadığı daha bir maneə var. Bu maneə qızın və qızı istəyən oğlanın sevgisidir. Sevgi isə elə bir güc mənbəyidir ki, o, qətiyyən hər hansı bir tənə və təhdidə, qorxu və hədəyə baxmır.

Ceyran girəvələyib Ələsgərlə görüşür, ona vəziyyəti deyir. Ələsgər isə bəyin qara köhləninə tumar çəkir, Ceyrana astaca işarə eləyir. "Bu köhlənin üstünə mənimlə birgə qalxa bilərsən?"- işarənin mahiyyəti budur. Beləliklə, dədə-baba dililə desək, nağıl dili yüyrək olar. Gənclər qara köhlənin belində özlərinin ağ bəxtlərinə doğru uçurlar. Dünyanın harasındasa bir yer tapırlar. Orada bulaq var, söykənəcək dağ var, binə qurulacaq yer var, meşə var. Və beləliklə, bir Ələsgərli kəndinin bünövrəsi qoyulur.

Oxucu buraya qədər sevinir. Gənclərin at belində olan bəxti ilə birgə uçur, üzü gələcəyə doğru can atır. Bu gənclərin o tənhalıqda yaşayıb ömür sürmək günlərini gözlərilə görmək istəyir.

...Nə az, nə çox, 20 yaşa hələ çatmamış gənclərin qaçışından doxsan il keçir. Abad bir kənd, yaşayışını, yolunu tapmış bir dünya var. Və bir gün bu kəndə bir jurnalist qız gəlir 110 yaşı keçmiş Ceyran nənədən müsahibə almağa. Ceyran nənəni bütöv kəndin anası olan, nənəsi olan, bütöv kəndin bünövrəsi olan, əslində, bir böyük kəndin əsl sahibi olan nənəni necə urvatsız görür... Onun qayınanalıq yaşında olan gəlini, yəni ən kiçik övladı olan oğlunun arvadı onu tövlədə saxlayır, mal-qara ilə bir yerdə. Müəllif həmin situasiyanı oxucunun diqqətinə çəkmək üçün tərəkəmə həyatını göstərə bilən ifadədən çox ustalıqla yararlanır. Belə ki, Ceyran nənənin üstündən sadır iyi gəlir. Bu "sadır" sözünü müəllifin tapıb yerində işlətməyi, əslində, Ceyran nənənin yaşadığı günün, güzəranın bütövlükdə təsviridir. Daha uzun-uzadı bu qoca qarının davarla bir tövlədə yaşamağı haqqında danışmağa dəymir. Jurnalist qız bunları qavrayır, dərk eləyir, hətta bir qarıya olan süni münasibəti, yəni onun gəlişi ilə bağlı guya ki, qayğıkeşlik mənzərəsinin saxtalığını, çürüklüyünü yerindəcə anlayır.

Qız başını götürüb qaçmaq istəyir, bu mühitdən uzaqlaşmaq istəyir. Amma onu bir körpə qız uşağının səsi bir anlığa da olsa yolundan əyləyir. Bu, həmin 110 yaşlı qarının səsidir. Sanki bir körpə uşaq elə bil ki, ana qucağından səs eləyir. Jurnalist ondan necə yaşı olduğunu, ərindən nə vaxt ayrıldığını soruşur. Qarı cavab verir ki, o, məndən 20 il bundan əvvəl ayrılıb. Amma bu günlərdə yuxuda gördüm. O, mənə qırmızı, qəşəng paltarlar almışam. Deyirdi ki, niyə qalmısan orda, bunları sənin üçün almışam. Geyin və birlikdə təzədən dünyaya qayıdaq.

Özü də qarının dediyi sözü jurnalist öz düşüncəsinə yığır. Lap uşaq səsi ilə danışırdı. Ələsgəri yuxuda gördüyünü deyirdi.

Ş.Nasirin insan taleyi haqqında bu hekayəsi bir çox cəhətdən ibrətlidir. Əvvəla burada bir krişnaçılıq da var. Yəni insan əzəlinə qayıdaraq təzədən dünyaya gəlməlidir. Bu hekayədə Azərbaycan mifik-fəlsəfi düşüncəsindən gəlmə "əzəlin gəlsin axırın?" sualına cavab da var.

Bu hekayə atılmışlığa aparan yolun psixoloji mahiyyətini də göstərir.

...110 iləcən yaşamış Pəri nənəm deyərdi ki, hər kəs öz karvanı ilə getsə yaxşıdır.

***Əli Rza XƏLƏFLİ***
***15.07.2020***